**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2024.2.40**

**İLHAMİ ƏLİYEV**

# XIV ƏSRDƏ AZƏRBAYCANIN SİYASİ HƏYATINDA NAXÇIVAN

*Məqalədə XIV əsrdə Azərbaycanın siyasi həyatında Naxçıvanın yerindən bəhs olunur. Qeyd edilir ki, Azərbaycan XIV yüzilliyə Hülakülər dövlətinin idarəçiliyi ilə başlanmış, Qazan xanın (1295-1304) hakimiyyətinin son illərində ölkəyə şimaldan basqınlar yenidən güclənmişdi. Elxanilərin Misir məmlükləri ilə müharibələri qızılordalıları Azərbaycanı zəbt etməyə şirnikləndisə də, bu baş tutmamışdı. Əbu Səidin (1316-1335) hakimiyyəti illərində daxili vəziyyətinin pisləşməsindən istifadə edən qızılordalılar buranı ələ keçirməyə səy göstərsələr də, baş əmir Çobanın idarə etdiyi Elxani qoşunları onları məğlubiyyətə uğratmışdır. 1338-ci ildən Azərbaycan, o cümlədən də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan bölgəsi Hülakülər dövləti adından Çobanilər tərəfindən idarə edilməyə başlandı. XIV əsrin 60-cı illərinədək ölkəni idarə edən Çobanilərin zülmü əvvəlki illərlə müqayisədə daha da ağır olmuşdur. Onları hakimiyyətdə əvəz edən Cəlairilər Azərbaycanda nəinki sabitlik yaratmış əksinə vəziyyəti daha da gərginləşdirmişdilər. Cəlairilərin daxili çəkişmələri azmış kimi, zəifləmiş bu dövlətin ərazisinə Teymuri və yenidən Qızıl Orda dövlətlərinin hücumları XIV əsrin 80-ci illərindən siyasi vəziyyəti olduqca ağır bir duruma gətirmişdi. Baş vermiş bu müharibələr Naxçıvanda xeyli dağıntılara səbəb olmuşdur.*

*Ümumiyyətlə, XIV əsrdə ölkəyə edilmiş işğalçı yürüşlər, hakimiyyət uğrunda baş vermiş daxili çəkişmələr zamanı hərbi-strateji baxımından əlverişli mövqedə yerləşən Naxçıvanın sığınacaq yeri seçilməsi, buranın siyasi hadisələrin mərkəzinə çevrilməsi bölgədə ictimai-siyasi vəziyyəti gərginləşdirmiş, iqtisadi inkişafı ləngitmiş, digər tərəfdən isə əvvəlki əsrlərdə mədəniyyətin çiçəkləndiyi bir bölgənin dağıdılmasına gətirib çıxarmışdır. Təsərrüfat sahələri, yollar, şəhərlər dağıdılmış, bütün bunlar bərpa edilənədək bölgənin iqtisadi və mədəni əlaqələrinin inkişafı ləngimişdir.*

**Açar sözlər:** *Çobanilər, Cəlairilər, Naxçıvan, siyasi vəziyyət, mübarizə, işğalçılıq.*

**Giriş.** 1295-ci ildə hakimiyyətə keçən Qazan xanın idarəçiliyi dövründə bir müddət Hülakülər dövləti ərazisində o cümlədən də Azərbaycanda sabitlik yarandı, iqtisadi və mədəni sahədə müəyyən irəliləyişlər oldu. Bu zaman Naxçıvan da digər Azərbaycan bölgələri kimi Qazan xanın hakimiyyəti altına keçdi. 1301-ci ilin payızında Misir yürüşündən qayıtdıqdan sonra, Qazan xan Naxçıvana gəlmiş və buradan keçib Arrana getmişdir [20, s. 193; 11, s. 35].

Naxçıvan bölgəsində əvvəlki illərdə törədilmiş dağıntıların aradan qaldırılması, bir sıra bərpa işlərinin, o cümlədən də Əlincə qalasının bərpa edilməsi əsasən, Qazan xanın həyata keçirdiyi islahat illərində olmuşdur. Qeyd edək ki, Hülakülər dövlətinin ilk qüdrətini özünə qaytarmaq üçün Qazan xan daxili siyasət istiqamətini əsaslı surətdə dəyişməyə, bir sıra mühüm islahatlar keçirməyə məcbur oldu. 1297-1304-cü illər ərzində həyata keçirilən islahatlarla bağlı Qazan xanın fərmanları istər ictimai-siyasi, sosial-iqtisadi, dini, istərsə də hüquqi baxımdan mükəmməlliyi ilə seçilir və daha mühüm əhəmiyyət daşıyırdı. Onun islahatlarının əsasını İslam dininin qəbulu və möhkəmləndirilməsi, hərbi iş və qoşun saxlanılması, təsərrüfat iqtisadiyyatının idarə edilməsi, torpaq və rəiyyətin hüquqları, ticarət-maliyyə qaydaları, saraydaxili idarəçilik, daxili qayda-qanunlara əməl edilməsi, ədalət mühakiməsi, mülkiyyət tələbləri haqda qanunvericiliklər və s. təşkil edirdi [21].

Qazan xanın həyata keçirdiyi bu islahatlar Azərbaycanın digər bölgələri ilə yanaşı, Naxçıvan üçün də əhəmiyyətli oldu. Belə ki, 1303-cü ildə Qazan xanın verdiyi fərmana əsasən torpaq mülkiyyətçilərinə yaşayış yerindən qaçmış kəndliləri 30 il ərzində geri qaytara bilmək

[2, s. 51] imkanının verilməsi Naxçıvan bölgəsində də yaşayan əhali sayının dinamikasına müsbət təsirini göstərdi. Demoqrafik artımın nəticəsi olaraq, XIII əsrin 40-cı illərində Naxçıvan xəzinəyə ildə 113 min dinar (11 tümən 3000 dinar) xərac ödədiyi halda, XIV əsrin əvvəllərində bu rəqəm ildə 150 min dinar [11, s. 46] olmuşdur.

**Çobanilərin hakimiyyəti illərində siyasi vəziyyət.** Azərbaycanda Çobanilərin hakimiyyəti XIV əsrin əvvəllərindən başlamışdır. Belə ki, bu sülalənin hakimiyyətinin əsasının qoyan əmir Çoban Elxani hökmdarları Qazan xanın və Məhəmmməd Ulcaytunun dövründə də dövlətin idarə işlərində yaxından iştirak edirdi [6, s. 61; 18, s. 280, 284]. 1316-cı ildən Əbu Səidin hakimiyyətə gəlişi ilə isə onun dövlət işlərində mövqeyi daha da yüksəldi. Bu dövrdə şahzadələr və iri feodallar mərkəzi hakimiyyətə tabe olmaq istəmir, tez-tez iğtişaşlar törədir, qonşu dövlətlərdən Qızıl Orda xanları, Mavəraünnəhr şahzadələri və Misir məmlükləri hücumlar edirdilər. Belə vəziyyətdə azyaşlı Əbu Səidin ölkəni idarə etməsi üçün əmir Çobanın köməyinə ehtiyacı ikincinin hakimiyyətdə möhkəmlənməsinə zəmin yaratdı [10, s. 18].

Bu zaman əmir Çoban faktiki hakimiyyəti ələ aldı və ölkəni idarə etməyə başladı. Lakin hakimiyyətin əmir Çobanın əlində cəmləşməsi ilə bir çox feodal qrupları razılaşmadı və ölkədə hərc-mərclik yarandı. Belə ki, 1319-cu ildə Hülakülər dövlətinin ərazisində (indiki Gürcüstan ərazisində) Əmir Qurumuşinin başçılığı ilə mərkəzi hakimiyyətə qarşı üsyan qalxdı. Əmir Çoban Özbək xan üzərində qələbə çaldıqdan sonra bir sıra əmirləri, o cümlədən Gürcüstan canişini Əmir Qurumuşini cəzalandırdı. Əmir Çobanın bu hərəkətini özünə təhqir sayan Qurumuşi Diyarbəkir hakimi İrəncin və digər bir sıra əmirlərlə ittifaq bağlayaraq üsyan qaldırdı və mərkəzi hakimiyyətə qarşı çıxdı [6, s. 21].

Üsyançılar Gürcüstandan Azərbaycan ərazisinə daxil olub, Təbrizə qədər irəlilədilər. Naxçıvan şəhəri onların istinadgahına çevrildi. Bu zaman üsyançılar Azərbaycan ərazisində xeyli talan və qarətlər həyata keçirdilər. Hətta H.Qəzvini yazır ki, əgər ilahi gücün yardımı olmasaydı üsyançıların hər bir arzusu gerçəkləşərdi və dövlətin mülkündən heç bir şey qalmazdı [17, s. 70]. Onlar Naxçıvanda ordu topladı və Əbu Səidin adından fərman yazıb bildirdilər ki, Əmir Qurumuşinin və Əmir İrəncin tərəfdarları Çobanilərdən hər kimi tutsalar öldürə bilərlər. Həmçinin, Əbu Səidin yanına elçi göndərərək bildirdilər ki, Əmir Çoban onun hökm və fərmanlarını yerinə yetirmir. Sonra sultandan Əmir Çobanı tələb etdilər [10, s. 21]. Göründüyü kimi, üsyan zamanı əhatəsini genişləndirən qiyamçı feodallar məhz Naxçıvanda qüvvələrini cəmləşdirmişdilər. Buradan sultan üzərinə hücum etdilər. Zəngəzur ərazisində baş verən qanlı döyüşdə Əbu Səid çətinliklə üsyanı yatıra bildi və şəxsi rəşadətinə görə “bahadır” adını qazandı [9, s. 232]. Lakin bu zaman Hülakü hökmdarı tamamilə əmir Çobanidan siyasi və iqtisadi baxımdan asılı vəziyyətə düşmüş, onun formal adı qalmışdı. Belə ki, bütün yuxarı vəzifələrə öz oğlanlarını – Dəmirdaşı Rum, Şeyx Mahmudu Gürcü, Həsəni Xorasan, Dəməşq Xacəni Azərbaycan və İraq hakimi, sonra isə Dəməşq Xacəni vəzir təyin etmişdi [10, s. 24]. İyirmi yaşlarına çatdıqda Əbu Səid əmir Çobanın bu mövqeyi ilə həm razılaşa bilmir, həm də hakimiyyətin əldən çıxmasından qorxurdu. Ona görə də, o, əmir Çobandan narazı feodalların köməyi ilə 1328-ci ildə Çobanı edam etdirdi. Onun müxtəlif vəzifələrdə olan yaxınlarını aradan götürtdürdü [16, s. 140-141]. Əmir Çobanın qızı, Əbu Səidin arvadı Baxdad xatun ailəsinə və yaxınlarına edilən pisliklərə görə ərinə qarşı qəlbən düşmən mövqedə durmuş, fürsət düşən kimi 1335-ci ildə onu zəhərləyərək öldürmüşdür [10, s. 28-29].

Əbu Səidin ölümü ilə Elxanilər dövləti daxilində vəziyyət çox gərginləşdi və bu dövlətin ərazisi 11 hissəyə bölündü. Həmin dövrdə Naxçıvan ərazisini Çobanilər idarə edirdilər. Lakin bölgə Cəlairilərin də maraq dairəsində idi. Əbu Səiddən sonra Çobani əmiri Şeyx Həsən

Rumda qoşun toplayıb Təbrizə tərəf irəlilədi. Bundan xəbər tutan Cəlairi Şeyx Həsən Məhəmməd xanla (1336-1338) birlikdə qoşun yığıb Naxçıvandan keçərək Çobanilərin üzərinə getdi. Döyüşdə Məhəmməd xan öldürüldü, Cəlairi Şeyx Həsən qaçdı. Bundan sonra Naxçıvan yenə də Çobani feodallarının nüfuz dairəsində qaldı [11, s. 36].

1336-1344-cü illərdə Azərbaycanda hakimiyyət səkkiz dəfə əldən-ələ keçmişdir. Daxili vəziyyətin gərginliyi ölkənin xarici durumuna da təsir edirdi. Bu zaman Azərbaycan dəfələrlə Qızıl Orda qoşunlarının hücumlarına məruz qalmışdır [10, s. 3]. Bu mübarizələr Naxçıvanda da ictimai-siyasi vəziyyəti gərginləşdirirdi.

Şeyx Həsən Çobani 1344-cü ildə sui-qəsd nəticəsində öldürüldü. Bunu eşidən digər Çobani əmiri Məlik Əşrəf və Yağı Basdı Şiraz səfərlərini təxirə salıb Təbrizə gəldilər. Bu zaman Şeyx Həsənin atası Dəmirdaşın qulamlarından olan Ələki Bahadur Naxçıvan hakimi idi və tam qüdrət sahibinə çevrilmişdi. O, Məlik Əşrəfə qoşuldu və onların hərbi gücü daha da artdı. Həmin ildə digər Çobani əmiri Surğan Rumda həbsdə olduğu Qarahasar qalasından azad oldu və qoşun toplayıb Təbrizə tərəf irəlilədi. Məlik Əşrəf və Yağı Basdı onu qarşılamaq adı ilə Naxçıvana gəldilər. Tərəflər Məmuriyyədə birləşdilər. Bu zaman Çobanilərin zülmü Azərbaycanda geniş yayılmışdı. Öz qəddarlığı ilə məşhurlaşan Çobani əmiri Məlik Əşrəf zülm və talançılıqla topladığı var dövlət hesabına 17 xəzinə əldə etmişdi [5, s. 36].

Qeyd edək ki, bəhs olunan dövrdə Naxçıvan ərazisindəki Əlincəqala Çobanilərin hakimiyyətində, xüsusilə də, Məlik Əşrəf üçün çox əhəmiyyətli bir yer idi. O, öz xəzinəsini, var-dövlətini bu qalada mühafizə etdirirdi. Həmçinin ona müxalif olanları həmin qalada məhbus kimi saxlatdırırdı. Məlik Əşrəf 1349-cu ildə Qarabağda vəzir Xacə Əbdülheyi tutdu, onu bir çox qalalarda məhbus kimi saxlatdı, var-dövlətini ələ keçirdi və ona qaraçı paltarı geyindirərək Əlincəqalaya göndərdi. Həmin vaxt qalada çoxlu sayda siyasi məhbuslar saxlanılırdı. Bunların içərisində Qazı Şəmsəddin, Xacə Qiyasəddin Şəkərləb, Sultanşah Seravi, Yəhya, Mahmud Tatbəki, Dəli Cövhər, İmadəddin Museyib və s. kimi o dövrün tanınmış şəxsləri var idi [14, s. 23-24].

Məlik Əşrəfin zülmü təkcə aşağı təbəqədən olan xalq kütlələrini deyil, torpaq sahiblərini, tacirləri və s. cana doydurmuşdu. Çobanilərin bu zülmü bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da əhalinin narazılığına səbəb olmuşdu. Çətinliklərə dözməyən əhalinin müəyyən hissəsi ölkəni tərk edirdilər [11, s. 36]. Tarixçi, alim R.Məmmədovun tədqiqatlarından aydın olur ki, Məlik Əşrəfin 1344-1356-cı illərdə hakimiyyəti altında olan torpaqlar sırasına daxil etdiyi Naxçıvanda Cucilərə rəğbət bəsləyən bir sıra varlı təbəqə nümayəndələri bölgəni tərk edərək başqa yerlərə qaçmağa məcbur olmuşdular [7, s. 91]. Qızıl Orda dövləti Canı bəyin dövründə siyasi və sosial-iqtisadi baxımdan xeyli inkişaf etmişdi. Buna görə də Təbriz, Ərdəbil, Bərdə, Beyləqan və Naxçıvandan olan bir çox tanınmış adamlar Məlik Əşrəfin zülmündən qaçaraq Qızıl Orda dövləti ərazisinə sığınmışdılar. Onlar həmçinin, Canı bəyə müraciət edərək hakimiyyəti ələ almasını xahiş etmişdilər [15, s. 74-75]. Bir qədər sonra Cuci xanı Canı bəy tərəfindən təqib olunan Məlik Əşrəf sığınacaq tapmaq məqsədilə onun hakimiyyəti altında olan Naxçıvana gəldi [7, s. 91]. O, Təbrizdən çıxarkən oradan xatınlarını, qızlarını, sursatını və Əlincəyə göndərmiş olduğu cəvahir, qızıl, gümüş, qiymətli daş-qaşdan ibarət xəzinələrini gətirtdi. Lakin əsgərləri ondan üz çevirdi və yolda onun var dövlətini, xəzinəsini talan etdilər. Məlik Əşrəf Xoyda tutularaq Təbrizə gətirildi və orada öldürüldü [9, s. 236]. Onun öldürülməsi ilə Çobanilərin Azərbaycanda Hülakülər dövlətinin mühafizəsi uğrundakı mübarizəsi də başa çatdı və Hülakülər dövləti 1357-ci ildə süqut etdi [1, s. 28]. Canı bəy digər Azərbaycan bölgələri kimi Naxçıvanı da tutdu və oğlu Bərdi bəyin idarəçiliyinə verdi [7, s. 91].

Qızıl Orda dövlətinin gəlişini digər Azərbaycan bölgələri ilə yanaşı Naxçıvanda da yerli əhali rəğbətlə qarşıladı. Bu Çobanilərin zülmündən dolayı xalqın narazılığının açıq etirafı idi.

1357-ci ildə Çobani əmirlərinin Azərbaycanda zülmünə son qoyulduqdan [14, s. 28] sonra ölkənin idarə edilməsini Canı bəy oğlu Bərdi bəyə tapşırıb geri döndü. Bərdi bəy isə bir neçə aydan sonra atasının xəstələnməsi xəbərini eşidib ölkədən getdi. Çobani əmiri Əxicuq yaranmış vəziyyətdən istifadə edərək Təbrizdə hakimiyyətə yiyələndi və bir ilə qədər bu davam etdi. Bu zaman hətta o, ölkənin ayrı-ayrı vilayətlərinə rəhbərliyi Əşrəfi əmirləri arasında bölmüşdü. Lakin həmin vaxt yenə də Azərbaycanı feodal qrupların qarşıdurmaları bürümüşdü [10, s. 66]. Belə bir vəziyyətdə 1356-cı ildə atası Şeyx Həsənin ölümündən sonra taxta çıxmış Cəlairi sultanı Şeyx Üveys 1358-ci ildə Azərbaycana yürüş etdi. Bu zaman Əxicuğun qoşunları ilə Cəlairi hərbi qüvvələri arasında döyüş Sina dağı yaxınlığında Əyyub Ənsari adlı yerdə baş verdi. Məğlubiyyətə düçar olan Əxicuq əvvəlcə Təbrizə gəldi, sonra Şeyx Üveysin onu təqib etdiyini bilib Naxçıvana çəkildi. Bütün əşrəfilər də onunla Naxçıvana gəldilər və burada sığınacaq tapdılar. Az sonra Naxçıvandakı əşrəfi əmirlərinin bir qismi Əxicuqdan üz döndərib Şeyx Üveysin yanına getdilər. Şeyx Üveys onlardan 50-ə yaxın adamı edam etdirdi. Bunu görən digər Əşrəfi əmirləri yenidən Naxçıvana qayıdıb Əxicuqla birləşdilər. Əxicuq Naxçıvandan və Arrandan güclü qoşun hissələri toplamağa cəhd göstərsə də, buna nail ola bilmədi və son nəticədə Şeyx Üveys tərəfindən məğlubiyyətə uğradıldı. Bununla da Naxçıvan əşrəfilərin zülmündən xilas oldu. Şeyx Üveys Azərbaycanda hakimiyyəti ələ keçirdi [1, s. 31].

**Cəlairilərin hakimiyyəti illərində siyasi vəziyyət.** Lakin Cəlairi Şeyx Üveys 1358-ci ildə Azərbaycanı ələ keçirsə də, burada möhkəmlənə bilmədi. Həmin dövrdə Cəlairilərin ordusunda baş verən satqınlıq Şeyx Üveysi Bağdada qayıtmağa məcbur etdi. Bundan istifadə edən Fars vilayətinin hakimi Məhəmməd Müzəffər Yəzdi 1359-cu ildə Azərbaycana yürüş etdi və Naxçıvan onun tərəfindən tutuldu. Onlar bu qələbədən ruhlanaraq Naxçıvanda üç gün şənlik etdilər [7, s. 92]. 1359-cu ilin sentyabrında Miyanə yaxınlığında Gərmrudda Müzəffər Yəzdinin 12 minlik qoşunu ilə Əxicuqun 30 minlik qoşunu döyüşə girdi. Əxicuq məğlub olduqdan sonra Məhəmməd Müzəffər Yəzdi Təbrizə daxil oldu [10, s. 66-67]. Ancaq 1359-cu ilin payızında Şeyx Üveys Azərbaycana yenidən yürüş etdi, Təbrizi tutaraq özünün paytaxtına çevirdi. Bununla da həmin vaxt Fars hakimi ölkəni tərk etdi. Naxçıvan yenidən Cəlairilərin nüfuz dairəsinə düşdü və bu dövlətin bir tüməni kimi fəaliyyət göstərməyə başladı. Yeri gəlmişkən qeyd edək ki, R.Məmmədov Məhəmməd Müzəffər Yəzdinin 1365-ci ilə qədər hakimiyyətdə qaldığını göstərmişdir [7, s. 92]. Amma bu dövrü ayrıca tədqiq etmiş V.Piriyev mənbələrə əsaslanaraq göstərmişdir ki, bir həftə sonra Cəlairilər gəldiyi üçün Fars vilayətinin hakimi ölkəni tərk etmiş, bir müddətdən sonra isə öz oğlu tərəfindən öldürülmüşdür [10, s. 66].

1374-cü ildə Cəlairi Şeyx Üveys öldükdən sonra Müzəffəri şah Şüca 1376-cı ildə Cəlairi Sultan Hüseynə qarşı çıxaraq Təbrizi ələ keçirdi və öz sərkərdələrindən Əmir Fərəci 2000 nəfərlik süvari dəstə ilə Naxçıvana göndərdi [14, s. 190]. Həmin vaxt Azərbaycanda siyasi vəziyyət yenidən gərginləşdi. Buna səbəb Cəlairi şahzadələrinin – Şeyx Üveysin övladlarının hakimiyyət uğrunda apardıqları mübarizə idi. Cəlairilər dövlətinin daxilində feodal özbaşınalığı gücləndi. Sultan Hüseynin qardaşı Sultan Əhməd oturaq əhalinin və yerli feodalların narazılığından istifadə edərək hakimiyyətə yiyələnməyə səy göstərdi. O, 1382-ci ildə Muğana və Arrana getdi, tez bir zamanda oradan qoşun toplayaraq Təbrizə tərəf irəlilədi. 1382-ci ildə qardaşı Sultan Hüseyni öldürüb taxt-taca yiyələnən Sultan Əhməd [11, s. 37] tezliklə digər

qardaşlarının həmlələrinə məruz qaldı. İlk vaxtlarda onun qardaşı Bəyazid və müttəfiqi Adil ağanın qoşun hissələri Təbrizə üz tutdular. Onlara müqavimət göstərə bilməyən Sultan Əhməd Naxçıvana qaçdı. Həmin vaxt Adil ağa Təbrizə daxil oldu, lakin əmirlərinin müxalif çıxdığını bilib şəhəri tərk etdi. Bundan sonra Sultan Əhməd Naxçıvandan Təbrizə qayıtdı [14, s. 44-45]. Daha sonra Sultan Əhmədin digər qardaşı Şeyx Əli və Pir Əli Barəkin müşayiəti ilə Bağdaddan onun üzərinə yürüş etdi. Sultan Əhməd yenidən Təbrizdən Naxçıvana gəldi. Onlar yol boyu hər yeri qarət etdilər. Bu dövrdə Sultan Əhmədə qarşı ittifaqa girmiş Qara Məhəmməd və Pir Ömər birinci tərəfindən məğlub edilərək hər ikisi öldürüldü [11, s. 38].

**Əmir Teymur və Toxtamışın Azərbaycana yürüşləri.** Çobanilər dövründə olduğu kimi, Cəlairilər dövründə də Azərbaycan ərazisi digər dövlətlərin maraq dairəsində idi. Belə ki, XIV əsrin 80-ci illərindən etibarən Azərbaycan Mərkəzi Asiya imperiyasının banisi Əmir Teymurla [1370-1405], Qızıl Orda xanı Toxtamış [1376-1395] arasında savaş meydanına çevrilmişdi. Qeyd edək ki, bu zaman Azərbaycanda siyasi sabitliyin olmaması Əmir Teymurun və Toxtamışın bu ölkəyə hücumu üçün əlverişli şərait yaratmışdı. Teymur 1385-ci ildə bir sıra qonşu dövlət başçılarına məktub göndərərək onlardan tabe olmağı tələb etdi. Bu zaman Xorasan hakimi ətraf vilayətlərin hakimlərinə, o cümlədən də Cəlairi sultanı Əhmədə xəbər göndərərək Teymura qarşı birləşməyi təklif etdi. Lakin o, müsbət cavab almadığından bu mübarizədə tək qaldı və məğlub oldu. Teymurun Xorasanı tutub Azərbaycana tərəf irəlilədiyini eşidən Sultan Əhməd ona qarşı qoşun göndərdi, lakin Sultaniyyə ətrafındakı vuruşmada onun hərbi qüvvələri məğlubiyyətə uğradı. Sultaniyyə şəhərini aldıqdan sonra Teymur Mərkəzi Asiyada baş vermiş hadisələrlə əlaqədar Səmərqəndə qayıtdı [2, s. 38-39].

Bu zaman Cəlairilər dövlətinin zəifləməsi, Sultan Əhmədin Bağdadda olması və Teymurun Səmərqəndə qayıtması nəticəsində yaranmış əlverişli vəziyyətdən istifadə edən Qızıl Orda xanı Toxtamış bu yürüşdə Teymuru qabaqladı. Onun 90 minlik ordusu Bəy Poladın başçılığı altında 1385-ci ilin qışında Dərbənd keçidindən keçərək Azərbaycana hücum etdi [4, s. 305]. Dərbənd və Şirvanı tutduqdan sonra qızılordalılar Təbriz üzərinə hücum etdilər. Şəhər əhalisi 8 gün ərzində işğalçıların zülmünə məruz qaldı. Bu zaman şəhərə yaxınlaşan Sultan Əhmədin qoşununu qızılordalılar geri çəkilməyə məcbur etdi. Marağa şəhəri üzərinə hücum edən Toxtamışın qoşunu bu şəhəri də tutub qarət etdikdən sonra buradan iki qismə bölünərək Mərənd və Əhər istiqamətində hücumu davam etdirdilər [2, s. 39]. Mərənd istiqamətində gedən qızılordalılar oradan Naxçıvana hücum etdilər. Onlar tezliklə Naxçıvan şəhərini tutdular. Şəhər qarət edildi. Foma Metsopski bu hadisədən bəhs edərkən qeyd etmişdir ki, qızılordalılar Naxçıvanda və Sünikdə olmazın dağıntı və qarətlərini törətmiş, Naxçıvan şəhəri, bütün Sünik ölkəsi, onun 12 vilayəti dağıdılmış, əhalisinin çox hissəsi qılıncdan keçirilmiş, bir çox insanlar əsir götürülmüşdür. Onun yazdığına görə, əhalinin bu zülmdən xilas olunmasında havaların soyuq keçməsinin rolu böyük olmuşdur. Müəllif bildirir ki, aprelin 7-də güclü qarın yağması əsirlərin bir hissəsinin öz canını qurtarmasına, Toxtamışın qoşununun isə əldə etdikləri qənimətin çoxunu ataraq gəldikləri yolla geri qayıtmasına səbəb olmuşdu [19, s. 11, 57; 11, s. 38]. Ancaq bütün bunlarla yanaşı, yerli əhalinin işğalçılara qarşı inadlı mübarizəsi və Əmir Teymurun qoşunlarının Qızıl Orda torpaqlarına hücum xəbərinin alınması da Toxtamış xanı Azərbaycanın işğal olunmuş şəhərlərindən, o cümlədən Naxçıvandan da tezliklə çıxmasına və gəldiyi yolla geri qayıtmasına səbəb oldu. O dövr mənbələrdən də aydın olur ki, bu hücum zamanı qızılordalılar əhalinin bir çoxunu qılıncdan keçirmiş və bir çoxunu əsir etmişdilər. Toxtamış xan işğal etdiyi şəhərlərin əhalisinə divan tutmaqla yanaşı, onları köləyə çevirir,

əsir götürüb Qızıl Ordaya aparırdı. Zeynəddin bin Həmdullah Qəzvini Naxçıvanın həmin vaxtdakı vəziyyətindən bəhs edərək yazmışdır ki, Naxçıvan bu dövrdə yenidən rəhmsizcəsinə dağıdıldı [7, s. 93]. Müəllif həmin hadisələrdən bəhs edərkən göstərmişdir ki, Toxtamışın qoşunu Marağada da qətl və qarətlər edib geri qayıtdı, Təbrizdə qalanların axırına çıxdı, daha iki gün qırğın, qətl və qarətlər oldu. Bundan sonra onların bəziləri Naxçıvan yolu ilə getdilər, Mərənd və Naxçıvanı dağıtdılar. Bəziləri isə Əhər yolu ilə getdilər, Qarabağda bir-biri ilə birləşdilər və bu yerlərdən 200 minə qədər adamı əsir apardılar [4, s. 305; 9, s. 238].

Göründüyü kimi, Qızıl Orda xanı Toxtamış bu zaman Azərbaycanın bir sıra şəhərlərinə, o cümlədən Naxçıvana da hücum etmiş və bu yerlərdə xeyli dağıntı, qarət və qırğınlar həyata keçirmişdir. Hələ bu azmış kimi gedərkən özü ilə xeyli sayda əsir də aparmışdır. Bu o zamankı Cəlairilərin daxili çəkişmələrindən əziyyət çəkən xalqa bir də xarici işğalçıların vurduğu ağır zərbə idi. Lakin ölkədaxili siyasi vəziyyət Əmir Teymurun hücumları ilə daha da gərginləşdi. Belə ki, Qızıl Orda qoşunları Azərbaycanı tərk etdikdən sonra ölkə ərazisi bu dəfə ondan ağır həmləyə məruz qaldı. 1386-cı ilin yazında Teymurun qoşunları yenidən Cənubi Qafqaza yürüş etdi. Tarixdə "üçillik yürüş" kimi tanınan bu hücum zamanı o, ilk növbədə, bir sıra əmirlərini Sultaniyyəyə göndərdi. Onlar burada yerli hakim olan Adillə birləşdilər və Təbrizə gəldilər. Sultan Əhmədin Təbrizdəki əmirlərinin bir qismi Əlincə qalasına, bir qismi isə Bağdada çəkildi. Təbriz Adilin ixtiyarına keçdi. Bu zaman Sultan Əhmədin Təbrizə göndərdiyi qoşun məğlub olub geri qayıtdı. Bundan sonra Adil Teymuru qarşılamaq üçün Həmədana gedərkən Sultan Əhməd bir daha Təbrizə tərəf irəlilədi. O, Marağa vilayətinə daxil olduqda Adilin əmirləri Təbrizi tərk edib geri çəkildilər. Adillə birləşmiş Teymur Ucana çatdıqda Sultan Əhməd düşmənə qarşı müqavimət göstərmək iqtidarında olmadığını görüb Təbrizdən çıxaraq Naxçıvana gəldi. Buradan isə Vəstan-Van yolu ilə Bağdada çəkildi [2, s. 39]. Bu zaman Sultan Əhməd qoşunu ilə Teymurun əmirlərindən olan İlyas Xocanın hərbi qüvvələri arasında Naxçıvan yaxınlığında döyüş baş verdi. İlyas Xocanın bu döyüşdə təsadüfən yaralanması Sultan Əhmədi labüd məğlubiyyətdən qurtardı [9, s. 238].

Əmir Teymur Təbrizə daxil olduqdan bir müddətdən sonra Naxçıvana doğru hərəkət etdi. Beləliklə, Teymurun qoşunları Sultaniyyəni və Təbrizi tutduqdan sonra Naxçıvan istiqamətində irəliləməyə başladı. Əmir Teymurun qoşunları Naxçıvan ərazisinə daxil olduğu zaman Naxçıvan əhalisi Şeyx Həsənin başçılığı ilə Teymur qoşunlarına qarşı azadlıq mübarizəsinə qalxdı. İlyas Xocanın başçılıq etdiyi Teymur qoşunları naxçıvanlıların müqavimətini çətinliklə də olsa qıra bildi. Naxçıvanın bir sıra yaşayış məskənləri, o cümlədən Gərni və Sürməli istehkamları dağıdıldı, Şeyx Həsən tutularaq Teymurun hüzuruna gətirildi [14, s. 6; 9, s. 239]. Bu zaman Əlincə qalası mühasirəyə alındı və uzun müddət mərdliklə müdafiə olundu. Teymur Naxçıvandan Qarsa, oradan isə Tiflisə gedib bu əraziləri qarət etdikdən sonra Şəkiyə gəldi. Bir müddətdən sonra o, yenidən Naxçıvana qayıtdı, əvvəlcə Əlincəyə, sonra isə qaraqoyunlu Qara Məhəmmədə qarşı qoşun çəkdi və son nəticədə Səmərqəndə qayıtdı [14, s. 51-52; 18, s. 344].

**Əlincə qalasının Teymuri hücumlarından müdafiəsində rolu.** Naxçıvan Əmir Teymurun qoşunları tərəfindən tutulduqdan sonra burada əsas tabe edilməsi vacib olan strateji məntəqələrdən biri də Əlincə qalası idi. Bu qala orta əsrlər zamanı Azərbaycanın hərbi-strateji baxımdan ən mühüm məntəqələrindən biri olmuşdur. Əlincə qala Naxçıvan bölgəsində, Əlincəçayın sağ sahilində və eyniadlı dağın zirvəsindədir. İspan diplomatı, Kastiliya kralı III Enrikonun 1403-1406-cı illərdə Teymurilər dövlətindəki səfiri Rüi Qonsales Klavixo Əlincə qala haqqında bəhs edərkən qeyd etmişdir ki, bu qala strateji cəhətdən çox əlverişli bir möv-

qedə, yüksək və sıldırım qaya üzərində yerləşmiş, möhkəm divarlar və bürclərlə əhatə olunmuşdu. Hasarların içərisində, dağın döşündə üzümlüklər, bağlar və əkin yerləri, otlaqlar, çoxlu su mənbələri vardı. Qala uzun illər müdafiə şəraitində özünü ərzaqla təmin etmək imkanına malik idi. Qalada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi [8, s. 105-107].

1386-cı ildə də Teymurun qoşunları Azərbaycan ərazilərinə daxil olduğu vaxt Təbrizi tərk etmiş Cəlairi əmirlərinin bir qismi Əlincə qalaya çəkilmişdi. Cəlairi sultanı Əhməd də xəzinəsini, ailəsini və oğlu Tahiri bir dəstə qoşunla Əlincə qalada yerləşdirmiş, özü isə Bağdada getmişdi. Qalanın müdafiəsi Məlik Tahirə həvalə olunmuşdu. Qalanın kutvallığı isə əvvəlcə Xacə Cövhərə, sonra isə Əmir Altuna tapşırılmışdı. Xacə Cövhəri Əlincə qalanın kutvalı kimi təqdim etmiş Zeynəddin bin Həmdullah Qəzvini bu haqda yazmışdır ki, Xacə Cövhər hicri 793-cü ilin Ramazan bayramında (11.09.1390-cı il) taun xəstəliyindən öldükdən sonra Altun onun yerinə keçmişdir. Qalada Əmir Altunun ixtiyarında 300-ə yaxın qorçu (döyüşçü) var idi [11, s. 40; 9, s. 239].

Bu zaman Azərbaycanın əksər torpaqları, o cümlədən Naxçıvan bölgəsi teymurilər tərəfindən tutulsa da, Əlincə qala hələ ələ keçirilməmişdi. Ona görə də növbəti hücum bu qala üzərinə edildi. Qalanı tutmaq, oradakıları tabe etmək və Cəlairilərin xəzinəsini ələ keçirmək üçün 1386-cı ilin sonlarında qala divarları yanında Teymurun qoşunları ilə qala müdafiəçiləri arasında döyüş baş verdi. Bu zaman qalanı ələ keçirə bilməyən Teymur Qarabağa doğru hərəkət etdi. Əlincə qalası Teymurun qoşunları tərəfindən mühasirədə saxlanıldı. 1387-ci ilin əvvəllərində Teymur Qarabağdan Göyçə gölünün sahillərinə, oradan isə Mərəndə getdi. Mərənddən yenidən geriyə – Naxçıvana qayıdaraq Əlincə qalaya hücum etdi. Teymur 3 gün qalanın ətəklərində qaldıqdan sonra qoşunun qalaya tərəf qalxması barədə əmr verdi. Ertəsi gün qoşun hissələri ilə qala müdafiəçiləri arasında gərgin döyüşlər oldu [14, s. 38].

Bu zaman Azərbaycanın ayrı-ayrı feodal hakimləri, hətta gürcü dövləti Teymur qoşunlarına zərbə vurmaq, onun irəliləməsinə və burada möhkəmlənməsinə imkan verməmək məqsədilə Əlincə qalasının müdafiəsinə yaxından kömək edirdilər. Bu məqsədlə Şəki hakimi Seyid Əli Orlat 1388-1389-cu ilin qışında gürcülərlə ittifaqa girərək Əlincə qalası müdafiəçilərinin köməyinə gəldi. Qalanın qarşısında Teymur qoşunu ilə müttəfiq hərbi qüvvələri arasında gərgin döyüş başlandı. Teymurun döyüşçüləri qalanın aşağı səngərlərini ələ keçirib dağıtdılar, belə olduqda müdafiəçilər Əlincə qalasının yuxarı hissəsinə çəkildilər. Teymur qalanı yenidən mühasirəyə aldı. Belə bir vaxtda qalanın daxilindəki su ehtiyatı qurtardı və müdafiəçilər susuz qaldılar. Onlar danışıqlar aparmaq üçün Teymurun yanına nümayəndə göndərməyə məcbur oldular. Teymur qala müdafiəçilərinin təslim olacağını yəqin edib qoşunu qalanın ətəklərinə endirdi. Lakin xoşbəxtlikdən müdafiəçilər qaladan çıxmamış leysan yağışı yağdı və qalanın bütün quyuları, anbarları su ilə doldu. Beləliklə, də bol su ehtiyatı yarandığından döyüşçülər qaladan çıxmadılar və onu düşmənə təslim etmədilər [3, s. 351].

Bu dəfə də bir nəticə əldə etməyən Teymur qalanın mühasirəsini daha da qüvvətləndirib Naxçıvana çəkildi. Vəziyyətin getdikcə kəskinləşdiyini hiss edən Teymur oğlu Miranşahdan kömək istədi. Miranşah Əlincə qalasının mühasirəsini möhkəmləndirmək məqsədilə Xorasandan xüsusi qoşununu gətirdərək oğlu Əbubəkr Mirzənin komandanlığı altında qala üzərinə göndərdi [7, s. 94]. Mənbələrin yazdıqlarına görə Əlincə qala qarşısında hər iki tərəf arasında gərgin döyüşlər başladı. Günlərlə davam edən döyüşlər qala müdafiəçilərini qələbəsi ilə başa çatdı. Əbubəkr Mirzə öz qoşun hissələri ilə geri çəkilməyə məcbur oldu. Qala ətrafında döyüş

zamanı Seyid Əli Orlat Əbubəkr Mirzənin üstünə hücum edərkən Əbubəkr Mirzənin atdığı oxlardan biri onun dəbilqəsini deşdi və boynuna sancıldı. Beləliklə, Əlincə qalasının qəhrəmancasına müdafiəsində Şəki hakimi Seyid Əli Orlat həlak oldu [3, s. 352; 7, s. 94-95]. Lakin ağır itkilər verilməsinə baxmayaraq müttəfiq qoşunları teymuriləri Əlincə qalasının mühasirəsindən müvəqqəti olaraq əl çəkməyə məcbur etdilər. Müttəfiqlərin belə sıx mübarizə aparması Teymurun qoşunlarının Cənubi Qafqazda törətdikləri dağıntı və qırğınların ağır nəticələr verdiyindən və geniş əraziləri əhatə etdiyindən xəbər verirdi.

Bütün bunlardan sonra Teymurun Səmərqəndə qayıtması ilə Azərbaycanda hakimiyyət uğrunda mübarizə və xalq hərəkatı şiddətləndi. Qeyd etmək lazımdır ki, 1387-1392-ci illərdə Azərbaycan daxili feodal ara müharibələri və xarici hücumların meydanına çevrilmişdi. Həmin illərdə Təbrizə 17 dəfə hücum edilmiş və onlardan 14 hücumun nəticəsində şəhər bir feodal qrupun əlindən digərinə keçmişdir. Əlincə müdafiəçiləri də bu mübarizədə yaxından iştirak etmiş və 4 dəfə Təbrizə yürüş təşkil etmişdilər. Onların 1388-ci ilin yazında bu şəhərə ilk yürüşü müvəffəqiyyətlə qurtarmasa da, sonrakı 3 yürüşdə (1388, 1390, 1392-ci illərdə) Əlincə döyüşçüləri Təbrizi tutmuş və müəyyən müddət şəhərdə hökmranlıq etmişdilər. Əlincə müdafiəçilərinin Təbriz uğrundakı mübarizəsində Cəlairilərin Azərbaycandakı hakimiyyətlərini bərqərar etmək məqsədi güclü olmuşdu [14, s. 53-57; 11, s. 41-42].

1392-ci ildə Azərbaycan və işğal edilmiş digər yerlərdə vəziyyəti nizama salmaq üçün Cənubi Qafqaza yenidən yürüş edən Teymur tabeçilikdən boyun qaçıran qüvvələri yenidən itaətə gətirdikdən sonra Bağdad və ətraf əraziləri zəbt edərək Bitlis şəhərinə getdi. Oradan Əlincə qalasının üzərinə Əmir Məhəmməd Dərviş Bərlasın başçılığı altında yeni qüvvələr göndərdi, özü isə Azərbaycandan və Gürcüstandan əsgər toplayıb Aladağa qayıtdı. Əlincə qalanın mərdliklə müdafiə olunduğunu görən Teymur bir müddətdən sonra Sultaniyyəyə gedib xacə Ağbuğanı da böyük qoşunla qalanın mühasirəsini davam etdirən Məhəmməd Dərviş Bərlasın köməyinə göndərdi [11, s. 42]. 1393-cü ildə dörd görkəmli əmirin (tümən əmirlərinin) başçılığı ilə 40 min nəfərlik Teymur ordusu qala üzərinə hücuma keçdi [12, s. 9]. Bu zaman təsadüfən qala müdafiəçilərindən bir dəstəsi Əmir Altunun başçılığı ilə qaladan çıxmışdı. Onlar geri döndükdə vəziyyətin dəyişdiyini, qala qapılarının düşmən tərəfindən tutulduğunu görüb teymurilərə qarşı hücuma keçdilər. Düzgün mövqe tutan Əmir Altun düşmənə böyük tələfat verdi, 4 tümən əmirinin ikisini öldürdü və öz dəstəsi ilə qalaya daxil oldu [3, s. 352]. Ancaq xalq içərisindən çıxmış Əmir Altunun qala müdafiəçiləri tərəfindən sevilməsini, ona yüksək səviyyədə hörmət göstərilməsini hökmdar oğlu olan Məlik Tahir qəbul edə bilmir, buna qısqanclıqla yanaşırdı. Qala müdafiəçilərinin ona qarşı etinasızlığının səbəbini Əmir Altunda görən Məlik Tahir ona nifrət bəsləyirdi. Odur ki, Əmir Altunun qaladan müvəqqəti çıxmasından istifadə edən Məlik Tahir onun qardaşını öldürtdü, özünü isə qalaya buraxmadı. Əmir Altun Mərəndə getməyə məcbur oldu. Mərənd hakimi isə onu öldürüb başını Əmir Teymura göndərdi. Lakin Əmir Altun kimi qəhrəman, cəsur və igid sərkərdənin ölümü Əmir Teymuru sevindirmədi. Ona görə də Əmir Teymur Mərənd hakimini öldürtdü və əmlakını müsadirə etdirdi. Məlik Tahirin Əmir Altuna qarşı ədalətsiz hərəkəti onsuz da Məlik Tahirə qarşı olan qala müdafiəçilərinin narazılığını daha da artırdı. Onların bir qismi Məlik Tahirdən üz döndərib qalanı tərk etdilər. Məlik Tahir qala müdafiəçilərinin ondan üz döndərdiyini və öz acizliyini hiss edib Cəlairilərin Əlincədəki xəzinəsini və ailəsini götürüb Bağdada çəkildi [9, s. 240].

Orta əsr tarixçisi Şərafəddin Əli Yəzdinin "Zəfərnamə" əsərindən aydın olur ki, Sultan

Tahirdən sonra qalanın müdafiəsi Hacı Saleh, Əmir Seyid Əhməd Oğulşayi və üç gürcü sərkərdəsinə tapşırılmışıdır [13, s. 56-57]. Həmçinin, müəllifin verdiyi məlumatlardan aydın olur ki, Teymur ordusu Sivas və Şam tərəfə gedəndə Əmirzadə Miranşahın qoşunundan Şeyx Məhəmməd Daruğa və Əmirzadə Şahruxun hərbi qüvvələrindən Firuzşah göstərişə əsasən Əlincə qalaya getmiş və mühasirənin davam etdirilməsi ilə məşğul olmuşdular. Qala müdafiəçiləri uzun sürən mühasirədən yorulduqlarından, ərzaq ehtiyatının tükənməsindən və s. çətinliklər üzündən bir müddətdən sonra qaladan çıxaraq onu təslim etmişdilər. Bu hadisədən sonra Teymuri qoşunu qalanın müdafiəsinə rəhbərlik edən Seyid Əhməd Oğulşayini Teymurun hüzuruna göndərmişdilər. Bu zaman Bağdad şəhərində olan Əmir Teymur Seyid Əhməd Oğulşayi buraya gətirildikdən sonra onun qətlinə fərman vermiş oldu [13, s. 65]. Əmir Seyid Əhməd Oğulşayi Bağdadda edam edildi.

Beləliklə, fasilələrlə 14 illik qəhrəmancasına mübarizədən sonra 1401-ci ildə Əlincə qalası Teymur qoşunları tərəfindən tutuldu [11, s. 44]. 1385-1401-ci illər ərzində Azərbaycanda on böyük döyüş olmuşdu. Bunlardan dördü (1387, 1393, 1397, 1400-cu illərdə) bilavasitə Əlincədə, biri isə (1386) Naxçıvan şəhərində baş vermişdi [5]. Əlincə qalasının, eləcə də Azərbaycanın digər möhtəşəm qalalarının süqutunun əsas səbəblərindən biri daxili feodal çəkişmələri, qüvvələr arasında birliyin olmaması idi.

Göründüyü kimi, Cəlairilərin hakimiyyəti dövründə Əlincəqala uzun müddət bu dövlətin istinadgahı olmuşdu. Xüsusilə də, Teymurun yürüşləri dövründə Əlincə qala Cəlairilərin əsas müdafiə istehkamına çevrilmişdi. Cəlairilər hələ xarici hücumlar olmayanda belə Naxçıvan əhalisini itaət altında saxlamaq, vergilər toplamaq üçün bir cəza yeri kimi Əlincəqaladan istifadə edirdilər, orada böyük xərc bahasına daim üç yüz nəfərlik qoşun dəstəsi saxlayırdılar [7, s. 95].

1401-ci ildə Əlincə qalanın Teymurilər tərəfindən ələ keçirilməsi ilə Cəlairilər dövlətinin bütün ərazisinin işğalı başa çatdırılmış oldu. Lakin Teymurun ölümündən (1406) sonra Sultan Əhməd Misirdən Azərbaycana qayıtdı. O, Təbriz şəhərini tutaraq yenidən hakimiyyəti ələ aldı. Bu zaman 1406-cı ilin may ayında Əlincə qalasını tutaraq dağıdan Təbriz qazısı İmadəddin Sultan Əhmədin tərəfinə keçdi və soyurqal olaraq bütün Naxçıvan bölgəsini hakimiyyəti altına keçirdi. Sultan Əhməd Əlincə qalanın möhkəmliyini nəzərə alaraq onun bərpa edilməsi haqqında fərman verdi [7, s. 97]. Bütün bunlar göstərir ki, Naxçıvan o cümlədən də Əlincə qalası Cəlairilərin son dövründə də əsas strateji əhəmiyyətini qoruyub saxlamışdı. Bu illərdə Sultan Əhmədin hakimiyyəti uzun sürmədi, tezliklə o, ağır vergilər və amansız rəftarı ilə əhalinin nifrətini qazandı. Özünə qarşı sui-qəsd təşkil edilməsindən xəbər tutan Sultan Əhməd Bağdada qaçdı. 1410-cu ildə yenidən Təbrizə daxil olan Sultan Əhməd Qara Yusiflə döyüşdə öldürüldü. Onun ölümü ilə Azərbaycanda Cəlairilərin hakimiyyətinə son qoyuldu [9, s. 237].

Qeyd edək ki, Əmir Teymurun hücumları zamanı işğal edilmiş digər ölkələr kimi, Naxçıvan da daxil olmaqla Azərbaycanın ayrı-ayrı bölgələrində xalqın vəziyyəti çox acınacaqlı idi. Çünki Teymurun qoşunları tutduqları yerləri dağıtmaq və talan etməklə əl çəkmir, bu yerlərin tabe olmaq istəməyən əhalisini tamamilə qırırdılar. Bu zaman ölkənin Teymur tərəfindən istila edilməsi və onun zülmü siyasi vəziyyətin gərginləşməsi ilə yanaşı, burada təsərrüfat həyatına da sarsıdıcı zərbə vururdu. Dövrün müasirlərindən biri yazmışdır ki, Teymur gedəndən sonra ölkəmizdə dəhşətli aclıq yarandı, aclıq hər yeri bürüdü [3, s. 355]. Bu zaman Teymurun oğlu Miranşahı xalq qəddarlığına görə "Maranşah" (ilanlar şahı)

adlandırırdı. O, şəhər və kəndləri amansızcasına talayır, əhalini var-yoxdan çıxarırdı. Bir müddət Naxçıvanda Əlincə qalasının mühasirəsinə rəhbərlik etmiş və bölgə əhalisi onun zülmündən cana doymuşdu. Bu illərdə Azərbaycanın bir sıra bölgələrində – Təbrizdə, Şəkidə, Naxçıvanda ona qarşı üsyanlar baş vermişdi. Naxçıvan bölgəsində Teymurilərin bu amansız istismarına qarşı mübarizədə Hürufilik təriqəti tərəfdarlarının da əhəmiyyətli rolu olmuşdur. Elə buna görə bu təriqətin banisi Fəzlullah Nəimi 1394-cü ildə Teymurun əmri ilə Miranşah tərəfindən həbsə alınaraq Əlincə qalasına gətirilmiş və orada ağır işgəncə ilə edam edilmişdir [3, s. 356-357].

**Nəticə**. Beləliklə, XIV əsrdə Azərbaycan ərazisinə xaricdən edilmiş işğalçı yürüşlər, hakimiyyət uğrunda baş vermiş daxili çəkişmələr zamanı hərbi-strateji baxımından əlverişli mövqedə yerləşən Naxçıvanın sığınacaq yeri seçilməsi, buranın siyasi hadisələrin mərkəzinə çevrilməsi bölgədə ictimai-siyasi vəziyyəti gərginləşdirmiş, iqtisadi inkişafı ləngitmiş, digər tərəfdən isə əvvəlki əsrlərdə mədəniyyətin çiçəkləndiyi bir bölgənin dağıdılmasına gətirib çıxarmışdır. Təsərrüfat sahələri, yollar, şəhərlər dağıdılmış, bütün bunlar bərpa edilənədək bölgənin iqtisadi və mədəni əlaqələrinin inkişafı ləngimişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi: 7 clilddə. II c.: III-XIII əsrin I rübü, Bakı: Elm, 1998, 596 s.
2. Azərbaycan tarixi: 7 cilddə. III c.: XIII-XVIII əsrlər, Bakı: Elm, 2007, 592 s.
3. Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək): Ali məktəblər üçün dərslik / Z.M.Bünyadov və Y.B.Yusifovun redaktəsilə. Bakı: Azərnəşr, 1994, 680 s.
4. Azərbaycan tarixi / S.Əliyarlının redaktorluğu ilə. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 872 s.
5. Əliyev V. Naxçıvan monqol yürüşləri və Teymurilər dövründə. “Xalq” qəz., 2009, 9 avqust.
6. Qəzvini H. Zeyl-e tarix-e qozide / Giriş, tərcümə, şərhlər və göstəricilər M.D.Kazımovun və V.Z.Piriyevindir. Bakı: Elm, 1986, 148 s.
7. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı: Elm, 1977, 158 s.
8. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan: Bakanlar Medya, 2008, 520 s.
9. Naxçıvan tarixi: 3 cilddə. I c., Naxçıvan: Əcəmi, 2013, 452 s.
10. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360). Bakı: Elm, 1978, 141 s.
11. Piriyev V.Z. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı: Müəllim, 2004, 126 s.
12. Səfərli H.Y. Culfa bölgəsinin epiqrafik abidələri. Bakı: Elm, 2002, 80 s.
13. Yəzdi Ş.Ə. Zəfərnamə (Azərbaycan tarixinə dair seçmələr) / Fars dilindən tərcümə, ön söz və izahlar Vaqif Piriyevindir. Bakı: Azərnəşr, 1996, 80 s.
14. Qəzvini H. Zeyl-e tarix-e qozide (secilmiş tarixə əlavə) / Fars dilindən tərcümə, müqəddimə, qeydlər və göstəricilər M.D.Kazımov və V.Z.Piriyevindir. Bakı: Elm, 1990, 212 s.
15. Kürkçüoğlu E. Nahcıvan Tarihi (V-XV. yüzyıllar). Erzurum: Güneş Vakfı Kültürel Yayınlar, 2007, 134 s.
16. Şpuler B. İran moğolları / Türkceye tercüme edeni Cemal Köprülü. Ankara: Türk Tarih Kurumu Basımevi, 1957, 577 s.
17. Toğan Z.V. Ümumtürk tarihine giriş. I c., İstanbul: Enderun yayınları, 1981, 537 s.
18. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Изд. Акад. Наук Азербайджанской ССР, 1956, 419 с.

19. Мецопский Ф. История Тимур-ланка. Баку: Изд. Акад. Наук Азербайджанской ССР, 1957, 102 с.
20. Рашид-ад-дин Ф. Джами-ат-таварих. Т. III, Баку: АН Азербайджанской ССР, 1957, 361 с.
21. https://az.wikipedia.org/wiki/Qazan_xanın_islahatları

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ilhamialiyev@yahoo.com.tr***

**Ilhami Aliyev**

## NAKHCHIVAN IN THE POLITICAL LIFE OF AZERBAIJAN IN 14TH CENTURY

This article discusses the role of Nakhchivan in Azerbaijan's political life during the 14th century. It is noted that Azerbaijan entered the 14th century under the rule of the Hulaguids. During the late reign of Ghazan Khan (1295-1304), northern invasions intensified once again. Although the wars of the Ilkhanate against the Mamluks of Egypt enticed the Golden Horde to invade Azerbaijan, they did not succeed. During the reign of Abu Sa'id (1316-1335), the internal situation deteriorated, and despite the Golden Horde's attempts to seize control, they were defeated by the Ilkhanid army led by Grand Emir Choban. From 1338, Azerbaijan, including the integral Nakhchivan region, was governed by the Chobanids on behalf of the Hulaguids. The oppression under the Chobanids, who ruled until the 1360s, was even harsher compared to previous years. The Jalayirids, who succeeded them, failed to stabilize the region and exacerbated the situation. The internal conflicts of the Jalayirids, coupled with invasions by the Timurids and the Golden Horde, worsened the political situation in the 1380s. These wars caused significant destruction in Nakhchivan.

Overall, during the 14th century, the invasion campaigns against the country and internal conflicts for power turned Nakhchivan, which is strategically located, into a refuge and a political center. This situation intensified the socio-political conditions in the region. On the other hand, this led to the destruction of a region that had flourished culturally in previous centuries. Fields of economy, roads, and cities were destroyed, and until these were restored, the development of the region's economic and cultural connections was hindered.

**Keywords:** *Chobanids, Jalayirids, Nakhchivan, political situation, struggle, invasion.*

**Ильхами Алиев**

## НАХЧЫВАН В ПОЛИТИЧЕСКОЙ ЖИЗНИ АЗЕРБАЙДЖАНА XIV ВЕКА

В статье говорится о месте Нахчывана в политической жизни Азербайджана XIV века. Отмечается, что Азербайджан начал XIV век под властью государства Хулагуидов, а в последние годы правления Газан-хана (1295-1304 гг.) набеги на страну с севера вновь усилились. Хотя войны Эльханидов с мамлюками Египта и соблазняли Золотую Орду вторгнуться в Азербайджан, этого не произошло. В период правления Абу Саида (1316-

1335) золотоордынцы, воспользовавшись ухудшением внутреннего положения в стране, попытались захватить ее, но войска Эльханидов во главе с главным эмиром Чобани разгромили их. С 1338 года Азербайджан, включая его неотъемлемую часть, Нахчыванскую область, стал управляться Чобанидами от имени государства Хулагуидов. Притеснения со стороны Чобанидов, правивших страной до 60-х годов XIV века, стали более жестокими, чем в предыдущие годы. Сменившие их во власти Джалаириды не только не создали стабильность в Азербайджане, но и еще больше накалили ситуацию. В придачу к внутренним распрям Джалаиридов политическую ситуацию в этом ослабленном государстве начиная с 80-х годов XIV века сильно осложняли также нападения Теймуридов и повторные вторжения Золотоордынского государства. Эти войны вызвали значительные разрушения в Нахчыване.

В целом выбор Нахчывана, расположенного в выгодном с военной и стратегической точки зрения положении, в качестве места убежища во время вторжений в страну и внутренней борьбы за власть в XIV веке, и трансформация региона в центр политических событий, обострили общественно-политическую ситуацию, замедлили экономическое развитие, с другой стороны, это привело к разрушению этого края, имевшего цветущую культуру в предыдущий период. Сельскохозяйственные угодья, дороги, города были разрушены, развитие экономических и культурных связей региона задерживалось до тех пор, пока все это не было восстановлено.

**Ключевые слова:** *Чобаниды, Джалаириды, Нахчыван, политическая ситуация, борьба, оккупация.*

*(AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 16.09.2024**
**Son variant 07.10.2024**